

***Coşqun Xəliloğlu***

# MƏCHUL

***(YUMOR)***

**Çoxmərtəbəli binada yaşayırıq. Səhər sübhdən işə gedib qaş qaralanda qayıtdığımdan qonşuların çoxunu düz-əməlli tanımıram.**

**Bazar günü idi. Həyətimizdə 9-10 yaşlı uşaqla rastlaşdım. O, gülümsünərək;**

**-Əmi, salam.**

**Uşağın salam verməyinə çox sevindim.**

**-Salam.**

**-Əmi, adınız nədir?**

**-Adımı neynirsən, bala?**

**-Anam soruşur.**

**-Anan adımı neynir?**

**-Bacımın toyudu, Sizi də çağırmaq istəyir. Deyir ki, sakit adamdı, çağırsaq gələcək.**

**Qonşuların xeyir-şərində iştirak etmək yaxşı işdir. Amma heç vaxt ünsiyyətdə olmadığım, adımı bilməyən qonşumun - heç mən də onun adını bilmirəm - məni hansı düşüncə ilə toya çağırmaq istəməsini, "Sakit adamdı, çağırsaq gələcək." məntiqini başa düşmədim. Əsəbləşsəm də büruzə verməməyə çalışdım:**

**-Adım bu günə kimi Sakit idi. İndi gedirəm, "Asan Xidmət"ə. Adımı dəyişdirib "Məchul" qoyacağam, deyib uzaqlaşdım.**

**Bəlkə də inanmayacaqsınız. Axşamüstü idi, evə yenicə qayıtmışdım. Qapı döyüldü. Açdım, həmin uşaqdı, mənə dəvətnamə uzatdı. Zəif səslə, mübarəkdi, -dedim, dəvətnaməni alıb, açdım. Məchul müəllimi toya dəvət etmişdilər.**

Ədalət .- 2025.- 1 avqust(№28).- S.8.